# 02 Adəm və Həvva

## Yaradılış 2

[1] Göylər və yer, oradakı hər şey beləcə tamamlandı. [2] Tanrı yeddinci günə qədər gördüyü işləri
qurtardı və yeddinci gün gördüyü işlərdən ayrılıb istirahət etdi. [3] Tanrı yeddinci günə bərəkət verdi
və onu təqdis etdi, çünki gördüyü bütün yaratma işini qurtarıb həmin gün istirahət etdi. [4] Rəbb
Tanrının göyləri və yeri yaratmasının hekayəti belədir: Rəbb Tanrı göyləri və yeri yaradanda [5] yer
üzündə heç bir bitki yox idi, heç bir çöl otu da bitmirdi, çünki Rəbb Tanrı yer üzünə hələ yağış
göndərməmişdi və torpağı becərən insan da yaranmamışdı. [6] Amma yerdən su çıxırdı və bütün
torpağı sulayırdı. [7] Rəbb Tanrı yerin torpağından insanı düzəltdi və onun burnuna həyat nəfəsi
üfürdü. Beləcə insan canlı varlıq oldu. [8] Sonra Rəbb Tanrı şərqdə yerləşən Edendə bir bağ saldı və
düzəltdiyi insanı orada yerləşdirdi. [9] Rəbb Tanrı torpaqda gözəl görünüşlü və yemək üçün şirin
meyvəli cürbəcür ağaclar yetirdi. O həmçinin bağın ortasında həyat ağacını və xeyirlə şəri bilmə
ağacını bitirdi. [10] Bağı suvarmaq üçün Edendən bir çay çıxırdı, oradan isə dörd qola bölünürdü.
[11] Onlardan birinin adı Pişondur. O bütün Xavila ölkəsini dolanaraq axır. Orada qızıl çıxır. [12] Bu
ölkənin qızılı yaxşıdır. Burada həm də ətirli qatran və damarlı əqiq var.
[13] İkinci çayın adı Gixondur. O, Kuş ölkəsini dolanaraq axır. [14] Üçüncü çayın adı Dəclədir. O, Aşşur
ölkəsinin şərqindən axır. Dördüncü çay Fəratdır. [15] Rəbb Tanrı insanı götürüb Eden bağına qoydu ki,
oranı becərsin və saxlasın. [16] Rəbb Tanrı insana əmr edib dedi: «Bağdakı bütün ağacların
bəhrəsindən istəyəndə yeyə bilərsən. [17] Ancaq xeyirlə şəri bilmə ağacının meyvəsindən yemə, çünki
ondan yeyən gün hökmən öləcəksən».
[18] Rəbb Tanrı yenə dedi: «İnsanın tək olması yaxşı deyil, Mən ona münasib olan bir köməkçi
yaradacağam».
[19] Rəbb Tanrı bütün çöl heyvanlarını və göydəki bütün quşları torpaqdan düzəltdi. Sonra onları
insanın yanına gətirdi ki, onun bunları necə adlandıracağını görsün. İnsan hər heyvana hansı adı
qoydusa, o cür də adlandı.
[20] İnsan bütün ev heyvanlarına, göydəki quşlara və bütün çöl heyvanlarına ad verdi, amma insana
münasib olan bir köməkçi tapılmadı. [21] O zaman Rəbb Tanrı insana dərin yuxu göndərdi və o yuxuya
getdi. Onda Rəbb Tanrı onun qabırğasının birini götürdü və yerini ətlə örtdü. [22] Rəbb Tanrı insandan
götürdüyü qabırğadan qadını düzəltdi və onu insanın yanına gətirdi. [23] İnsan dedi: «Bax, nəhayət,
bunun Sümüyü mənim sümüyümdən, Bədəni mənim bədənimdəndir. Adına "qadın" deyiləcək,
Çünki o, kişidən
götürülüb». [24] Buna görə də kişi öz ata-anasını tərk edib arvadına qovuşacaq və onlar bir bədən
olacaq. [25] Adəm və arvadı – ikisi də çılpaq idi, ancaq bundan utanmırdılar.

## <u>Sorular:</u>

- Tanrı haqqında nə öyrənirik?
- İnsanın yaradılması və onun vəzifələri haqqında nə öyrənirik?
- Tanrı qadınla kişi arasındakı münasibətin necə olmasını istəyir?
- Tətbiq etmək istədiyiniz prinsiplə rastlaşmısınızmı?
- Sizə açılanları kiminlə bölüşəcəksiniz?